# Kiçikyaşlı məktəblilərin təlimdə pedaqoji-psixoloji xüsusiyyətləri

**Xanım Nizami qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** mammadova.kh@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. Ş.O. Ağayev,
p.ü.f.d., dos. M.Ə. Zamanova

**Açar sözlər:** təlim, məktəbli, uşaq, sinif, məktəb, kollektiv, qabiliyyət, müəllim
**Ключевые слова:** обучение, школьница, ребенок, класс, школа, коллектив, способности, учитель
**Key words:** training, schoolgirl, child, class, school, team, ability, teacher

Məktəbə qədəm qoymaq uşağın həyatında çox vacib hadisədir. Bu onun həyatında tamamilə yeni bir mərhələnin – məktəb həyatının başlanğıcıdır. Bu başlanğıc uşağın cəmiyyətdə yeni ictimai vəzifə – şagird vəzifəsinin tutmasına imkan yaradır. 6 yaşlı uşağa onu əhatə edən insanların gözündə yeni bir yaş dövrünə keçməsi çox cəlbedici və maraqlı təsir bağışlayır. Düzdür, məktəbə hazırlıq dövründə uşağı məktəbli forması, rəngarəng çantalar, qəşəng qələm, qələmqabları və bu kimi zahiri atributlar daha çox cəlb edir. Bu atributlar uşaqların məktəbəqədər dövrdə qazandıqları biliklərlə birgə yeni şərait, yeni dostların qazanılması, şagirdlərin öz idrak imkanlarını sərgiləməsi, ətraf aləmin dərk edilməsi və dünyagörüşünü genişləndirməsi kimi tələbatlarının formalaşmasına şərait yaradır. Uşağın yeni ictimai status qazanması növbəti yaş dövründə (kiçik məktəb yaşı dövrü) psixoloji dəyişikliklərinin yaranmasına və təlim fəaliyyətinin dərk olunmasına zəmin yaratmış olur. Uşağın şagird adını qazanması böyüklərlə yeni qeyri-situativ şəxsi ünsiyyət formasına keçid kimi də başa düşülür. Uşaqlar böyük həyəcan və həvəslə böyüklər aləminin hörmətli nümayəndəsi olan müəllimlə görüşü gözləyirlər. Əgər uşaq müəllimin hərəkətlərinə nümunə kimi baxırsa, onu özünə nümunə kimi qəbul edirsə, onun peşə keyfiyyətlərini qəbul edirsə, bu, uşağın məktəb mühitinə münasibətlərini asanlaşdırır və onun şagird kimi mövqeyini realizə etməsinə şərait yaratmış olur.

Bu yaş dövründə uşağın başlıca xüsusiyyətləri - məktəbli olması və təlim fəaliyyətini təşkil etməsindən ibarətdir. Fəaliyyətin əsas cəhəti öyrənməyə meyl yaranır, müəllimlər, həmyaşıdları ilə ünsiyyətə girir və həyat şəraiti dəyişir. Tədricən sinif kollektivinə uyğunlaşır, qarşılıqlı münasibətlər formalaşır. Yeni daxil olmuş məktəblilər bir sıra problemlər ilə qarşılaşırlar. O, artıq cəmiyyətdə formalaşan şəxsiyyətdir, şagirddir. Belə ki, şagirdlər üçün nəzərdə tutulan qaydalara əməl etməli, dərsə hazırlıqlı gəlməli, müəllimi dinləməli və onun bütün tələb və göstərişlərini yerinə yetirməlidir. Bununla belə uşaq sinif kollektivinə adaptasiya edir, ünsiyyət sahəsi genişlənir. Kiçikyaşlı uşaqların məktəb təcrübəsi onu göstərir ki, yeni daxil olmuş uşağın həyat tərzi, gün rejimi, ətraf mühitinə dəyişiklik etmədən məktəb həyatına uyğunlaşa bilmir. Ona görə bəzi uşaqlar məktəbə getmək istəmirlər. Bu çətinlikləri dəf etmək üçün müəllim fəaliyyəti, müəllim motivasiyası öndə olmalıdır. Müəllim hər bir şagirdə diqqət göstərməli, qayğı ilə yanaşmalıdır. Burada uşağın pedaqoji-psixoloji hazırlığından çox şey asılıdır. Müəllim ilə yanaşı valideynlərin üzərində məsul vəzifələr durur. Hər şeydən əvvəl valideynlər çalışmalıdır ki, övladı ilə ən səmimi, sədaqətli, etibarlı dost olsunlar. Uşaqlar onlara inanıb, hər bir çətinliklərini bölüşməyi bacarsınlar. I sinfə gedən uşağa səbirlə, diqqətlə, qayğı

və tələbkarlıqla yanaşmaq lazımdır. Ailədə valideynlərin, məktəbdə müəllimin öhdəsinə böyük məsuliyyət düşür. Müəllimin şəxsi nümunəsi çox böyük tərbiyəvi əhəmiyyətə malikdir. Hətta şagirdlər müəllimin dediklərini valideynlərin dediklərindən üstün tuturlar. Müəllimə belə dedi, belə göstərdi kimi ifadələr tez-tez eşitmək olar.

Uşağın məktəbə daxil olması idrak proseslərinin inkişafı üçün geniş imkan yaranır. Bu dövrdə uşaqların idrak prosesləri möhkəmlənir və inkişaf edir. L.S. Vıqotskinin fikrincə bu proseslər kiçik məktəb yaşının sonunda "təbii" proseslərdən "mədəni" proseslərə çevrilməlidir, daha doğrusu nitqlə bağlı olaraq ixtiyari, vasitəli ali psixi funksiyalara çevrilməlidir. Buna uşağın məktəbdə və ailədə məşğul olduğu əsas fəaliyyət növləri: təlim, ünsiyyət, oyun və əmək fəaliyyətlərinə zəmin yaradır.

Kiçikyaşlı məktəblilərdə qavrama qabiliyyəti qeyri-sabitliyi ilə seçilir. Bu dövrdə qavrayışın xüsusiyyətləri uşağın həyat fəaliyyətinin təsiri ilə ətraf mühitin cisim və hadisələrin fəal qarşılıqlı münasibəti prosesi sürətlə inkişaf edir. Kiçikyaşlı məktəblilərdə qavrayışın xarakterik xüsusiyyətlərindn biri onun fərqləndirici nisbətən az məqsədəyönəlmiş olmasıdır. Həmin yaş dövründə uşaqlar ətraf mühitdə onlar üçün əhəmiyyətli olan cəhətləri qavramağa meylli olurlar. Bu zaman uşaqlar xarici, bilavasitə nəzərə çarpan əlamətlərə görə qavramaya daha çox önəm verilir. Şagirdlərin qavrayış üçün xarakterik cəhətlərdən biri də oxşar obyektləri qavramalarındakı qeyri-dəqiqlikdir. Məsələn kiçik yaşlı məktəbli 9-la 6-nı qarışıq sala bilər. Lakin hər şeyi bilmək istəyi, öyrənməyə meyl və maraq özünü göstərir. Bu yaş dövründə uşaqların qavrayışı kəskin emosionallıq ilə fərqlənir. Ona görə də təcrübəli müəllimlər uşaqların diqqətini cəm etməli, onların müşahidəçilik qabiliyyətlərini artırmaq üçün şərait yaratmalıdırlar. Təcrübə göstərir ki, təlim və tərbiyənin təsiri altında və ümumi inkişaf prosesində kiçikyaşlı məktəblilərdə zaman və məkan qavrayışının təkmilləşməsi baş verir.

Kiçikyaşlı məktəblilərdə diqqət seçici xarakter daşıyır. Kiçik yaşlı uşaqlarda qeyri-ixtiyari diqqət ixtiyari diqqətə nisbətən üstünlük təşkil edir. Məlum olduğu kimi qeyri-ixtiyari diqqət uşaqların maraqları ilə əlaqədardır. Yeni daxil olan uşağın məktəbdə təlim fəaliyyətinə olan marağı genişlənir, inkişaf edir. Diqqətin artması şagirdin təlim fəaliyyətində müvəffəqiyyət qazanmasına əsaslı təsir göstərir. Bu zaman uşağın diqqətinin inkişafı üçün müxtəlif təlim üsullarından istifadə olunur. Təlim zamanı müxtəlif qaydalar gözlənilmədikdə uşağın diqqəti yayınır və dalğınlıq əmələ gəlir. Diqqətin davamlılığı müəllimin davranışından asılıdır. Müəllim səs tonunu, intonasiyasını dəyişdikdə, vurğu və intonasiyadan düzgün istifadə etməklə diqqətin davamlılığını təmin etmək olar.

Kiçik yaşlı məktəblilərdə təfəkkür emosional-obrazlılıqdan, mücərrəd məntiqliliyə istiqamətlənərək inkişaf edir. K.D. Uşinski müəllimlərə xatırladırdı Uşaq, ümumiyyətlə, formalarla, rənglərlə, səslərlə, hisslərlə düşünüb, fikirləşir. Məhz buna görə də o, ilk növbədə məktəbdə uşaq təfəkkürünün bu cəhətlərinə söykənməyə çağırırdı. Uşaqların təfəkkürü onların nitqi ilə qarşılıqlı əlaqədə olmaqla inkişaf edir. Məktəb təlimi zamanı uşağın söz ehtiyatı zənginləşir, şifahi və yazılı nitqdə ifadə etməyi bacarır. Kiçik yaşlı məktəblilərin ən başlıca xüsusiyyəti ünsiyyət zamanı nitq mədəniyyəti və nitqinin inkişaf etdirilməsi pedaqoji problemlərdən biridir. Kiçik məktəb yaş dövründə uşaqların oxu vərdişlərinə və yazılı nitqə yiyələnirlər. Nitqdə aydınlıq, sadəlik, ifadəlilik, səlistlik, obrazlılıq, düzgünlük, məqsədyönlülük kimi normalar gözlənilməlidir. Şagirdlərin düzgün yazı vərdişlərinə sahib olması məhz bu dövrdə başlayır. Şagirdlərin yazı mədəniyyəti düzgün oturmağa, əlin hərəkəti ilə qələm və dəftərdən düzgün istifadəyə yönəlmiş olmasıdır. Bu mərhələdən sonra orfoqrafik qaydalara əməl etmək yazılı nitqdə mühüm yer tutur.

Uşaqların hafizəsi məktəb fəaliyyətində təlim zamanı sürətlə inkişaf etməyə başlayır. Bu

dövrdə mexaniki hafizə-əzbərçilik üstünlük təşkil edir. Kiçik yaşlı məktəblilər materialı asanlıqla əzbər öyrənə bilirlər. Uşaqları əzbərçiliyə alışdırmaq olmaz. Şübhəsiz ki, bəzi materialları, məsələn, vurma cədvəlini əzbərləmək vacibdir. Lakin təcrübəli müəllim vurma cədvəlinin strukturunu öyrədir, ətraflı izah edir. Öyrənmə bu şəkildə təşkil olunduqda altı dəfə altı neçə etdiyini yaddan çıxarıbsa, özünü itirmir. O, altı dəfə altı neçə etdiyini yada salır və altı əlavə edir.

Təcrübə onu göstərir ki, kiçik yaşlı məktəblilərdə xüsusən də I-II sinif şagirdlərində əyani materialları yadda saxlamaq üstün mövqedə olur. Kiçik məktəb yaşlı uşaqlarda məntiqi hafizə nisbətən zəif inkişaf edir. Uşaqlar ən çox emosional təəssürat yaradan materialı yaxşı yadda saxlamağa daha çox meylli olurlar. Yuxarı siniflərə qalxdıqca bu hal aradan qalxmış olur.

Kiçik yaşlı məktəblilərin biliyinin artması nəticəsində təxəyyülün inkişafı üçün əlverişli şərait yaranır. Bu yaş dövründə bərpaedici təxəyyül əsas rol oynayır. Bərpaedici təxəyyül kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində həlledici rol oynamağa başlayır. Şagirdlərin təlim zamanı keçirilən dərs materiallarının- hekayə və nağılların mənimsənilməsini onlar əsasında surətləri təsəvvür etməkdə çətinlik çəkmirlər. Kiçik yaşlı məktəblinin təxəyyülü emosional xarakter daşıyır.

Psixoloji tədqiqatlar göstərir ki, birinci sinif şagirdlərinin təxəyyül surətləri bağça yaşı dövründə olduğu kimi sxematik xarakter daşıyır. Məktəbə daxil olmaq uşaqlarda yaradıcı təxəyyülün inkişafına şərait yaradır. Təlim prosesində şagirdlərin həyat təcrübəsi artır, təsəvvürləri genişlənir. Bütün bunlar uşaqların yaradıcı fəaliyyət göstərmələrinə imkan verir. Bu dövrdə uşağın şəkil çəkməsi, oyunda iştirakı, özündən nağıl və hekayələr quraşdırılması yaradıcı təxəyyülün inkişafına müsbət təsir göstərir.

Müasir kiçikyaşlı məktəblər artıq müxtəliflik, dəyişkənlik mövqeyindədir, burada müəllimin rolu əvəzsizdir. Hər bir uşağın şəxsi keyfiyyətlərinin inkişaf etdirilməsinə yönəlmişdir. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində bilik, bacarıq, vərdişlərini inkişaf etdirmək, uşağın gücünü sınamaq müəllimin üzərinə düşür. Məktəb illəri uşağın həyatında ən vacib hadisədir. Bu onun həyatında yeni bir mərhələnin - məktəb həyatının başlanğıcıdır. Bu başlanğıc uşaqların ictimai vəzifə - şagird vəzifəsinin tutmasına imkan yaradır. Uşağın yeni ictimai status qazanması, pedaqoji-psixoloji dəyişikliklərin yaranmasına zəmin yaradır.

Uşaqlar dərsdə rahatdırsa, qiymətləndirmə qorxusu yoxdur, cavab verməkdən çəkinmirlər, şagirdlər arasında yeni biliklərə yiyələnmək istəyi ildən-ilə artacaq. Biliklərin mənimsənilməsinin və bacarıqların formalaşmasının diaqnostikası təhsil prosesinin təşkilində son dərəcə mühüm rol oynayır, çünki o, müəllimi tələbələrin təhsil və idrak fəaliyyətini idarə etmək üçün lazımi məlumatlarla təmin edir. Təhsilin keyfiyyəti daha çox onun obyektivliyindən, tamlığından və vaxtında olmasından asılıdır, çünki tam hüquqlu informasiya dəstəyi olmadan idarəetmənin kor-koranə idarə olunması fikri bu gün müasir təhsil sisteminin bütün inkişaf kursu ilə sübut edilmişdir. Şagirdlərin tərəqqisinə nəzarətin ənənəvi forma və vasitələri əsasən təlimin nəticələri haqqında məlumat əldə etməyə yönəldilir və kiçik yaşlı məktəblilərin müəyyən səhvlərinin səbəblərini aşkar etməkdən, onların fəaliyyətinə təsir edən amilləri müəyyən etməkdən ibarət monitorinqin diaqnostik funksiyasını tam həyata keçirməyə imkan vermir. Tədricən uşaqlarda təlim və tərbiyənin təşkil olması ilə ümumi inkişaf prosesinin təkmilləşməsi baş verir.

**Məqalənin aktuallığı.** Şagird adını qazanmış uşaq ilk günlərdən böyüklərlə formaca yeni qeyri-situativ şəxsi ünsiyyət formasına keçir. O, böyük həyəcan və həvəslə böyüklər aləminin hörmətli nümayəndəsi olan müəllimlə görüşü gözləyirlər. Təbii ki, bu görüş ilk andan heç də uğurlu alınmaya bilər. Bu zaman uşaq müəyyən çətinliklərlə, hər şeydən əvvəl, ünsiyyət prob-

lemləri ilə rastlaşır. Bu kimi neqativ halların aradan qaldırılması, uşağın özünə olan inamının artırılması ilk növbədə, müəllimdən böyük ustalıq və pedaqoji məharət tələb edir. Məqalənin də aktuallığı onun məhz belə bir vacib bir problemə həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə kiçikyaşlı məktəblilərin təlimdə pedaqoji-psixoloji xüsusiyyətlərindən söhbət açılmaqla, fəaliyyətin əsas cəhətləri sadalanır, bu istiqamətdə aparılan müxtəlif tədqiqatlardan nümunələr göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
2. Qədirov Ə.Ə. Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı, L., 1961.
3. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı, 2003.
4. Мухина B.C. Возрастная психология, М., Изд-во «Академия», 1998.
5. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.


**Х.Н. Мамедова**

## Педагогико-психологические особенности младших школьников в процессе обучения

## Резюме

С первых дней ребенок, заслуживший звание ученика, переходит в новую форму вне ситуативного личного общения со взрослыми. Он с нетерпением ждет встречи с учителем, который является уважаемым представителем мира взрослых. Конечно, эта встреча не может быть успешной с первого момента. В этом случае ребенок сталкивается с определенными трудностями, в первую очередь, проблемами общения. Устранение подобных негативных ситуаций, повышение уверенности ребенка в себе, в первую очередь, требует от педагога большого мастерства и педагогического мастерства.

Также в статье рассматриваются педагогико-психологические особенности младших школьников в процессе обучения, перечисляются основные стороны деятельности, приводятся примеры из различных исследований, проводимых в этом направлении.

**H.N. Mammadova**

## Pedagogical and psychological features of younger students in the learning process

## Summary

From the first days, a child who has earned the title of a student passes into a new form of non-situational personal communication with adults. He is looking forward to meeting with the teacher, who is a respected representative of the adult world. Of course, this meeting may

not be successful from the first moment. In this case, the child faces certain difficulties, first of all, communication problems. Eliminating such negative situations, increasing the child's self-confidence, first of all, requires great skill and pedagogical skills from the teacher.

The article also discusses the pedagogical and psychological characteristics of young schoolchildren in training, lists the main aspects of the activity, and gives examples from various studies conducted in this direction.

**Redaksiyaya daxil olub:** 27.04.2022